# *Prezident İlham ƏLİYEV:*

# Qarabağın bərpası ilə Azərbaycan qüdrətli dövlət olduğunu bir daha bütün dünyaya nümayiş etdirir



***Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad edilən ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasının, eyni zamanda, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanılması hesabına Azərbaycanın inkişafının sürətlənəcəyi vurğulanıb. Bununla da regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşacağı, eləcə də, Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşməsində rolunun daha da möhkəmlənəcəyi diqqətə çatdırılıb.***

Ermənistanın hərbi təcavüzündən azad olunan 1,7 milyon hektar Azərbaycan ərazisinin əksər hissəsi müxtəlif növ kənd təsərrüfatı məhsullarının becərilməsi üçün yararlıdır. Həmin məhsulların emalı yeyinti sənayesində yeni güclərin yaranmasına, etibarlı təchizat bazasının formalaşdırılmasına imkan verəcəkdir. Ona görə də təbii ehtiyatlara əsaslanan sənaye müəssisələrinin qurulması, aqrar potensial nəzərə alınmaqla, iri emal sənayesi komplekslərinin yaradılması bu yaşayış məntəqələrinə qayıdan sakinlərin sosial şəraitinə, həyat tərzinə əsaslı təsir göstərəcək. Təbii ki, bu prosesdə dövlətlə bərabər, özəl sektor da fəal iştirak edəcək. Xüsusilə, xarici investorların cəlbi istiqamətində müəyyən imtiyazlar müəyyənləşdiriləcək, vergi-gömrük sistemində müvafiq güzəştlərin tətbiqinə önəm veriləcək. Bir sözlə, gerçəkləşdiriləcək strateji proqramda iqtisadi islahatlardan, mülkiyyət toxunulmazlığına zəmanətdən tutmuş məhkəmə münaqişələrinin ədalətli həllinə qədər bütün məsələlər öz ifadəsini tapacaq.

Beləliklə, Azərbaycan Prezidentinin rəhbərliyi ilə işğaldan azad edilən Qarabağ torpaqları iqtisadiyyatımızın daha sürətli inkişafı üçün yaxın gələcəkdə yeni potensial imkanları genişləndirəcək, Azərbaycanın iqtisadi göstəricilərinə görə regionda lider mövqeyini daha da möhkəmləndirəcək.

Göründüyü kimi, Böyük Qayıdış proqramının icrasında insanların Qarabağa mərhələli şəkildə köçürülməsi zəruri prosesdir. Belə halda, təhsil, səhiyyə və telekommunikasiya obyektlərinin koordinasiyalı bərpası əhalinin adaptasiyasını sürətləndirir. Paralel şəkildə əhalinin məşğulluğunun artırılması məqsədilə kiçik və orta bizneslərin dəstəklənməsi, bilavasitə ev təsərrüfatlarının inkişafına səbəb olacaq təşəbbüslərin artırılması məqsədəuyğun sayılır. Bundan əlavə, iqtisadi canlanmaya töhfə verəcək bank və turizm sektorlarına da xüsusi diqqət göstərilməsi mühüm önəm daşıyır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının sözlərinə görə, Qarabağda iqtisadiyyat 6 əsas istiqamət və 4 əsas ağırlıq mərkəzi üzrə dövlət-özəl partnyorluğu ilə inkişaf etdiriləcək.

O qeyd edib ki, iqtisadiyyatın 6 əsas istiqamətinə aqrar biznes, ərzaq sənayesi, dağ-mədən sənayesi, "yaşıl enerji", nəqliyyat-logistika və turizm sahələri daxildir. İki yüz min hektar kənd təsərrüfatı sahəsi və bundan da çox örüş yerləri, həmçinin keçmiş cəbhə xətti boyunca istifadəsiz qalan on minlərlə hektar ərazi aqrar biznesin resurs əsasını təşkil edir. Hesablamalar göstərir ki, orta müddətli perspektivdə Qarabağ bölgəsi ölkənin kənd təsərrüfatına 10,4 faiz töhfə verəcək. Bundan başqa, 167 faydalı qazıntı ehtiyatı hesabına Qarabağda dağ-mədən sənayesinin inkişafı planlaşdırılır. Xüsusən də, "Söyüdlü" yatağının hesabına Kəlbəcərin bölgədə dağ-mədən sənayesinin mərkəzinə çevrilməsi imkanları genişdir. Qarabağ bölgəsinin ölkəmizdə mədənçıxarma sənayesinə təsiri 5,3 faiz, emal sənayesinə isə 4,3 faiz ola bilər.

Qarabağda təhlükəsizliyin təmin olunması, o cümlədən, minalardan təmizlənmə və infrastrukturun yaradılması istiqamətində əsas yük dövlət büdcəsinin üzərinə düşsə də, beynəlxalq inkişaf partnyorları, özəl sektor və diaspor sərmayələri iqtisadiyyatın canlandırılmasında həlledici ola bilər. Həmçinin Qarabağın 2030-cu ilə qədər Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata sahiblənəcəyi gözlənilir.

Onu da qeyd edək ki, Cəbrayıl rayonu nəqliyyat-logistika mərkəzi olmaqla, həm Türkiyə və İran, həm də Qarabağın digər regionları ilə əlaqə xətlərinin üzərində yerləşir. Qarabağ bölgəsinin Azərbaycanda nəqliyyat xidmətlərinə olan təsiri 4,9 faiz qiymətləndirilir. Şuşanın nəinki Qarabağın, bütövlükdə Azərbaycanın, gələcək illərdə isə islam və türk dünyasının mədəniyyət mərkəzi statusunda turizmin əsas drayverinə çevriləcəyi gözlənilir. Qarabağ bölgəsinin 70 minlik ən iri şəhəri Ağdam isə bölgənin yüngül sənaye və xidmət mərkəzi funksiyasını daşıya bilər.

Qarabağ bölgəsində 0,5 giqavat külək, 0,7 giqavat su və 4 giqavat günəş enerjisi potensialı regionun yaşıl enerji zonasına çevrilməsinə zəmin yaradır. "Xudafərin", "Qız Qalası", "Suqovuşan" stansiyaları, həmçinin Kəlbəcər və Laçındakı kiçik su elektrik stansiyaları bu bölgənin ilkin enerji tələbatını ödəmək gücündədir. BP-nin Qarabağda "yaşıl enerji"yə sərmayə yatırmaq niyyəti nəinki alternativ enerji sahəsinə, bütövlükdə Qarabağ bölgəsinə sərmayə cəlbinə əlavə təkandır.

Prezident İlham Əliyev iyulun 22-də Azərbaycan Televiziyasına müsahibəsində də bu barədə deyib: "Biz bu ilin sonuna qədər azad edilmiş torpaqlarda – həm Qarabağda, həm də Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatını quracağıq: yeni xətlər, ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları. Ermənilər tərəfindən dağıdılmış 12 su elektrik stansiyasını ki, Kəlbəcər və Laçın rayonlarında onlara iki həftə möhlət verəndən sonra onları yandırıb dağıtmışdılar. Beləliklə, bu, əsas məsələdir. Çünki bu, olmasa, heç bir inkişafdan söhbət gedə bilməz.

Bundan sonra yaşıl enerji layihəsinin icra ediləcəyini diqqətə çatdıran dövlətimizin başçısı bildirib ki, artıq bir xarici şirkət tərəfindən maraq göstərilib. "200 meqavatlıq günəş elektrik stansiyasının xarici şirkətin vəsaiti hesabına tikintisi ilə bağlı razılığa gəldik. Bu, çox gözəl, önəmli hadisədir. Eyni zamanda, başqa şirkətlər üçün də bu, bir siqnaldır", – deyə Azərbaycan Prezidenti vurğulayıb.

İndi dünyanın müxtəlif enerji şirkətlərinin öz prioriteti üçün bərpaolunan enerjini təsbit etdiklərini deyən Prezident İlham Əliyev diqqətə çatdırıb: "Biz onları da dəvət edirik, gəlsinlər, investisiya qoysunlar. Bizim şaxələndirilmiş enerji şəbəkəmiz var, bizim bütün qonşu ölkələrlə Türkiyə, Rusiya, İran, Gürcüstanla yüksək gərginlikli enerji xətlərimiz var. Biz istənilən yerə enerjini ötürə bilərik. Məsələn, biz İrana indi ixrac edirik, Rusiyaya həm ixrac edirik, həm idxal edirik, amma daha çox ixrac edirik. Eyni zamanda, Gürcüstana, Türkiyəyə ixrac edirik".



Bu gün Qarabağın bərpasında prioritet istiqamətlərdən biri də yol infrastrukturunun bərpasıdır. Yeri gəlmişkən, hazırda Toğana–Kəlbəcər–İstisu (uzunluğu 83 kilometr, 4 hərəkət zolaqlı), Xudafərin–Qubadlı–Laçın (70 kilometr, 4 hərəkət zolaqlı), Kəlbəcər–Laçın (73 kilometr, 2 hərəkət zolaqlı), Füzuli–Hadrut (13 kilometr, 4 hərəkət zolaqlı), Bərdə–Ağdam (45 kilometr, 4 hərəkət zolaqlı), Şükürbəyli–Cəbrayıl–Hadrut (43 kilometr, 4 hərəkət zolaqlı), Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu (23 kilometr, 2 hərəkət zolaqlı), Talış–Tapqaraqoyunlu–Qaşaltı sanatoriyası (22 kilometr, 2 hərəkət zolaqlı) və Füzulidən Şuşaya – Zəfər yolunun (102 kilometr) tikintisi sürətlə aparılır.

Zəfər yolunun 2021-ci ilin sentyabrın sonu-oktyabrın əvvəlində istifadəyə verilməsi nəzərdə tutulur. Bu yol M-6 Hacıqabul–Horadiz–Ağbənd–Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi, Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır.

*(ardı 3-cü səhifədə)*

# *Prezident İlham ƏLİYEV:* Qarabağın bərpası ilə Azərbaycan qüdrətli dövlət olduğunu bir daha bütün dünyaya nümayiş etdirir



*(əvvəli 1-ci səhifədə)*

Şuşa şəhərinə 2-ci avtomobil yolu, I texniki dərəcəli olmaqla M-6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 157-ci kilometrliyindən başlayır, uzunluğu 81,6 kilometr, 4-6 hərəkət zolaqlı olacaq. Yol üzərində körpü və tunellər tikilməsi nəticəsində, yüksək sürət təmin olunacaq və Zəfər Yolu ilə müqayisədə 20,3 kilometr qısa olacaq. Avtomobil yolunun 2024-ci ildə başa çatdırılması nəzərdə tutulur.

İşğaldan azad olunmuş Laçına daxil olmadan uzunluğu 23 kilometr olan yolun tikintisi də sürətlə aparılır. Bu alternativ yeni yol iki hərəkət zolaqlı olacaq. Onu da qeyd edək ki, hazırda Laçın şəhərinə gedən yol sülhməramlıların nəzarətindədir. Bu məqsədlə rahat hərəkətin təmin edilməsi üçün Laçına daxil olmadan 23 kilometr uzunluğunda dairəvi alternativ yolun tikintisinə başlanılıb. Gələcəkdə bu istiqamətdə yeni layihələrin hazırlanması da gözlənilir.

Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd hissəsinin layihəsi hazırlanır və paralel



olaraq tikintisi aparılır. Avtomobil yolunun 2024-ci ildə başa çatdırılması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, sözügedən yolun uzunluğu 123, 8 kilometr olacaq.

Onu da xatırladaq ki, Qarabağda yol tikintisinə cəlb edilən işçi qüvvəsinin sırasında həm yerli, həm də Türkiyə mütəxəssisləri var. Azad olunan ərazilərdə hazirda Türkiyə şirkətləri 372 kilometr yol və 70 kilometr tunel tikintisi işləri aparırlar. Qeyd olunan ərazilərdə yerli şirkətlər isə 282 kilometr uzunluğunda yol çəkirlər.

Prezident İlham Əliyev tərəfindən Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması da nəinki bölgənin, həm də bütün regionun gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır.

Ümumi uzunluğu 100 kilometr olan bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad edilmiş torpaqlara rahat gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Ən önəmli cəhət isə odur ki, adı çəkilən infrastruktur Türkiyəyə qədər uzanmaqla Bakı-Tbilisi-Ceyhandan sonra Azərbaycanı qardaş ölkə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi olacaq. Həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin yaranmasına böyük töhfə verəcək.

Bununla da Azərbaycan təhlükəsiz tranzit ölkə kimi növbəti mərhələyə daxil olur. Eyni zamanda, bu infrastruktur bütün türk dünyasını birləşdirməklə yaxın gələcəkdə regionun türkdilli dövlətləri arasında dərin iqtisadi-siyasi birliyin qurulmasını şərtləndirir. Beləliklə, sözügedən layihənin reallaşması ilə Azərbaycanın regionda strateji əhəmiyyəti artır, o cümlədən, iqtisadi potensialı daha da güclənir.

***

Göründüyü kimi, hazırda Qarabağda genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, Ermənistanın işğalı zamanı yerlə yeksan edilən şəhər və kəndlərimiz, dağıdılan tarixi, mədəni və dini irsimiz bərpa olunur. Belə bir şəraitdə qəsbkar ölkə yenə də təxribatlarından əl çəkmir, dövlət sərhədimizi pozur, Azərbaycana qarşı cəfəng və yalan ittihamlar yaymaqdan əl çəkmir. Beləliklə, Qarabağı otuz ilə yaxın işğal altında saxlayan Ermənistan bu gün də beynəlxalq hüquqa zidd mövqe göstərir, iki dövlətin sərhədinin delimitasiyası prosesinə "yox" deyir, üçtərəfli bəyanatların icrasına maneə törədir. Səbəb isə aydındır: təcavüzkar Azərbaycana qarşı hələ də ərazi iddialarından əl çəkmək, ölkəmizin beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdiyini qəbul etmək istəmir. Halbuki Ermənistan rəhbərliyi anlamalıdır ki, bölgədə sülhün təmin olunması ölkələrin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığı prinsiplərinə riayət olunması əsasında həyata keçirilə bilər. Dayanıqlı sülh yalnız beynəlxalq hüquqa hörmət əsasında reallaşa bilər. Azərbaycan artıq 30 ildir ki, bu mövqeyi bəyan edir və rəhbər tutur.

Ermənistan, həmçinin bilməlidir ki, Qarabağ dünən də, bu gün də beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın tarixi ərazisi kimi tanınır. Artıq müharibə geridə qalıb, 44 günlük Vətən savaşında Ermənistan Azərbaycan qarşısında məğlub olub. Bundan sonra işğalçı yenidən Azərbaycanın ərazi bütövlüyünə müdaxilə edərsə, bölgədə yaranmış yeni vəziyyəti pozmaq istəyərsə, cavabını alacaq, dəmir yumruqla qarşılaşacaq.

Bu məqamda Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqinin mediada yayılan bir fikrini xatırlatmaq istərdik. Rus politoloq söhbətində Azərbaycanın Qarabağ üzərində nəzarətini tamamilə bərpa etdiyini, Ermənistan–Azərbaycan münasibətlərinin son dərəcə ağrılı vəziyyətdə olduğunu, eyni zamanda, Rusiyanın Ermənistanla Azərbaycan arasında normal münasibətlərin qurulmasına maraq göstərdiyini bildirib. A.Duqin daha sonra deyib: "Fikrimcə, Azərbaycan Prezidenti İlham Əliyev o qədər rasional bir xadimdir ki, mütləq doğru qərarı verəcək. Əvvəllər yürütdüyü siyasət də ona qələbə qazandırdı. O, çox müdrik bir siyasi xadimdir".

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 avqust.- S.4.